**12.11.2013**

# ƏMR
# №132

**“Perinatal ölüm haqqında tibbi şəhadətnamə”nin (Forma AZS-106/2) təsdiq edilməsi və elektron registrinin yaradılması barədə”**

“Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarına uyğun olaraq “Perinatal ölüm haqqında tibbi şəhadətnamə”nin elektron registrinin yaradılması məqsədilə

## ƏMR EDİRƏM:

1. “Perinatal ölüm haqqında tibbi şəhadətnamə” (Forma AZS-106/2) təsdiq edilsin (əlavə olunur).

2. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C. Əsəd-zadəyə tapşırılsın:

2.1. “Perinatal ölüm haqqında tibbi şəhadətnamə”nin (Forma AZS-106/2) elektron registrinin məlumat bazasının və proqram təminatının yaradılması təmin edilsin;

2.2. Respublika doğuşayardım və yenidoğulmuşun patologiyası şöbələri olan səhiyyə müəssisələrində “Perinatal ölüm haqqında tibb şəhadətnamə”nin (Forma AZS-106/2) proqram təminatının tətbiqi zamanı həmin müəssisələrə metodiki yardım və texniki dəstəyin göstərilməsi təmin edilsin;

2.3. “Perinatal ölüm haqqında tibbi şəhadətnamə”nin (Forma AZS-106/2) elektron registrindən zəruri məlumatların operativ şəkildə aidiyyəti qurumların elektron informasiya sistemlərinə ötürülməsi təmin edilsin.

3. Respublika doğuşayardım və yenidoğulmuşun patologiyası şöbələri olan səhiyyə müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, perinatal ölüm halı zamanı məlumatlar “Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi”nə (VESKS) daxil edildikdən sonra “Perinatal ölüm haqqında tibbi şəhadətnamə” (Forma AZS-106/2) VESKS vasitəsilə 3 nüsxədə çap edilərək, bir nüsxəsi həmin müəssisədə saxlanılmaqla, digər nüsxələrinin Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinə və ölmüş uşağın valideyninə verilməsi təmin edilsin.

4. İnformatika və Statistika İdarəsinin rəisi M. Əmrahova və Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C. Əsəd-zadəyə tapşırılsın ki, “Perinatal ölüm haqqında tibbi şəhadətnamə” (Forma AZS-106/2) 01 dekabr 2013-cü il tarixindən yalnız “Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi”nin müvafiq proqram modulundan çap olunmuş formada qəbul edilsin.

5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.10.2001-ci il tarixli 100 nömrəli əmrinin 3 nömrəli əlavəsi 01.12.2013-cü il tarixdən ləğv edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
“12” Dekabr 2013-cü il tarixli
132 nömrəli əmri ilə təsdiq edilmişdir

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ** **№**

**PERİNATAL ÖLÜM HAQQINDA TİBBİ ŞƏHADƏTNAMƏ № 106/2**

| | | | | | |
|---|---|---|---|---|---|
| Şəxsiyyəti təsdiq edən sənədin adı | | seriya | | № | |

**ANA HAQQINDA MƏLUMAT**

| | | | | | |
|---|---|---|---|---|---|
| Soyadı, adı, atasının adı | | | | | |
| Milliyyəti | | Vətəndaşlığı | | | |
| Doğum tarixi | | Təhsili | | Ailə vəziyyəti | |

**DAİMİ YAŞAYIŞ ÜNVANI**

| |
|---|
| |

**UŞAQ HAQQINDA MƏLUMAT**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Soyadı, adı, atasının adı | | | | | | VESKS kodu | | | |
| Doğum tarixi | | saatı | | Cinsi | | Çəki (qr) | | Boy (sm) | |
| Ölüm tarixi | | saatı | | Ölüm baş vermişdir | | Xəstəxananın kodu | | | |
| Digər yer | | | | | | | | | |

**ÖLÜM SƏBƏBİ**

| | | |
|---|---|---|
| a) | | |
| | *(XBT-10 kodu)* | *(döl və ya uşağın əsas xəstəliyi və ya patoloji halı)* |
| b) | | |
| | *(XBT-10 kodu)* | *(döl və ya uşağın digər xəstəlikləri və ya patoloji halları)* |
| c) | | |
| | *(XBT-10 kodu)* | *(ananın döl və ya uşağa mənfi təsir göstərən əsas xəstəliyi və patoloji halı)* |
| d) | | |
| | *(XBT-10 kodu)* | *(ananın döl və ya uşağa mənfi təsir göstərən digər əsas xəstəlikləri və ya patoloji halları)* |
| e) | | |
| | *(XBT-10 kodu)* | *(ölümlə əlaqədar digər şəraitlər)* |

| | | | |
|---|---|---|---|
| Ölüm səbəbinin autopsiya ilə təsdiqi | | Ölüm səbəbini müəyyən etmişdir | |

**ƏLAVƏ TİBBİ MƏLUMATLAR**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Həkimə (feldşerə) müraciətlərin sayı | | Neçənci hamiləlikdir | | Uşaq hamiləliyin neçənci həftəsində doğulmuşdur | | | |
| Neçənci doğuşdur | | Doğuşa qədər yardım | | Doğuşun gedişi | | | |
| Uşaq neçə döllü doğuşdan doğulub | | Əgər çoxdöllü doğuşdan doğulubsa, əkizlərdən neçəncidir | | Uşaq doğulmuşdur | | | |
| Uşaq ölmüşdür | | | | | | | |
| Diridoğulma əlamətləri | | | | | | | |
| Apqar şkalası: 1 dəq. sonra | | bal, 5 dəq. sonra | | bal. Silverman şkalası 1 dəq. sonra | | bal, 5 dəq. sonra | bal |
| Reanimasiya tədbirləri | | Doğuşu qəbul etmişdir | | Əvvəlki hamiləliklərdən: diridöllə doğuş sayı | | | |
| ölüdöllə doğuş sayı | | abortlar | | Əvvəlki hamiləliyin nəticəsi | | | |
| Hamiləlik dövrünün tibbi risk amilləri | | | | | | | |
| Doğuş ağırlaşmaları | | | | | | | |
| Yenidoğulmuşun ağırlaşmaları | | | | | | | |
| Mamalıq müdaxilələri | | | | | | | |
| Anadangəlmə anomaliyalar | | | | | | | |
| Qan qrupu və Rh: yenidoğulmuş | | ata | | ana | | Peyvəndlər | |
| Peyvəndlərə əks-göstərişlər | | | | | | | |
| Verildiyi tarix | | M.Y. | | | | | |
| Tibbi şəhadətnaməni verən tibb müəssisəsinin adı | | | | | | | |
| Həkimin soyadı, adı | | Vəzifəsi | | | | | |